# Qurban bayramı yardımlaşma, sosial həmrəylikdir



Türkiyə Dini İşləri Başkanlığı Qurban bayramına aylar öncədən hazırlaşmağa başlayıb. Qurbanlıq heyvanların şəriətə uyğun şəkildə kəsilməsi, vəqf və yardımların düzgün yönləndirilməsi, bayram namazlarının təşkili və xütbələrin məzmunu kimi məsələlər Dini İşləri Başkanlığının əsas fəaliyyət sahələrini təşkil edir.

Hər il bayrama bir neçə həftə qalmış məscidlərdə bayramla bağlı moizələr verilir, vətəndaşlar qurban ibadətinin dini mənası, qaydaları və etik davranışlar barədə maarifləndirilir.

Qurban bayramının əsas rəmzi olan qurbanlıq heyvanların (qoç, inək, dana, dəvə) satışı üçün xüsusi qurban bazarları qurulur. Bələdiyyələr və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən qeydiyyatdan keçmiş və baytarlıq yoxlamasından keçmiş heyvanlar satışa çıxarılır.

Bəzi iri şəhərlərdə İstanbulda, Ankarada, İzmirdə və Bursada qurban kəsimi üçün xüsusi məkanlar ayrılır. Bu məkanlarda həm gigiyenik şərait, həm də ibadətə uyğun qaydalar təmin edilir. Kəsim növbə sistemi ilə

Bir çox xeyriyyə təşkilatları, vəqflər və qeyri-hökumət qurumları (o cümlədən Türk Qızılay, İHH, Diyanət Vəqfi) imkanlı insanlardan toplanan vəsaitlərlə həm ölkə daxilində, həm də xarici ölkələrdə qurban kəsib, aztəminatlı ailələrə paylayır.

Bu sosial kampaniyalar xüsusilə qaçqınlar, Afrikadakı yoxsul icmalar və təbii fəlakət bölgələri üçün həyata keçirilir.

Qurban bayramı həm də uzun tətil imkanı təqdim etdiyindən, vətəndaşlar arasında səyahət edənlərin sayı artır. Bu səbəbdən, Türkiyənin Nəqliyyat Nazirliyi, Avtomobil Yolları Baş İdarəsi və Daxili İşlər Nazirliyi yol təhlükəsizliyinə də xüsusi önəm verir. Bayram günlərində əlavə avtobus və qatar səfərləri də təşkil olunur.

Türkiyədə Qurban bayramı ailə ziyarətləri, bayram süfrələri və qohumlarla görüşlərin ön planda olduğu bir dövrdür. Bayramdan əvvəl evlər təmizlənir, bazarlarda canlılıq artır, insanlar yeni geyimlər alır, uşaqlara bayram hədiyyələri hazırlanır. Ənənəvi olaraq bayram namazından sonra insanlar qurban kəsir, bir hissəsini ehtiyac sahiblərinə verir, digər hissəsi isə ailə və qohumlarla birgə süfrədə paylaşılır. Bayrama sayılı günlər qala qurbanlıq qiymətlərinin siyahısı da açıqlanıb. İribuynuzlu heyvanlar üçün 80 min ilə 350 min lirə (4000, 17500 AZN), xırdabuynuzlu heyvanlar üçün isə 13 min ilə 40 min lirə (650, 2000 AZN) tələb olunur.

Türkiyə Kənd Təsərrüfatı Palatalar Birliyinin (TZOB) sədri Şemsi Bayraktar Qurban bayramında 750 min iribuynuzlu, 2 milyon 600 min isə xırdabuynuzlu heyvan olmaqla ümumilikdə 3 milyon 350 min qurbanlıq kəsiləcəyini təxmin etdiklərini deyib.

Onu da qeyd edək ki, qurbanlıq heyvanların qiyməti şəhərə görə də dəyişir. Məsələn, Anadolunun bir çox vilayətindən İstanbula gətirilən qurbanlıq heyvanın qiyməti 250 min lirədən başlayaraq 400 min lirəyə qədər dəyişir (12500, 20000 AZN).

Türkiyənin müxtəlif şəhərlərindən gətirilən xırda və iribuynuzlu mal-qaranın alıcı gözlədiyi İzmirdə xırdabuynuzlu heyvanlar 18 min lirədən 23 min lirəyə (900, 1150 AZN) qədər satıldığı halda, iribuynuzlu mal-qaranın qiyməti növünə və çəkisinə görə 120 min ilə 300 min lirə (6000, 15000 AZN) arasında dəyişir.

Ankaranın Bağlum Qurban bazarında xırdabuynuzlu heyvanlar 15 min lirədən 35 min lirəyə (750, 1500 AZN), iribuynuzlu mal-qara isə 130 min irədən 400 min lirəyə (6500, 20000 AZN) qədər satışa çıxarılıb. Bazarda ən bahalı qurbanlıq heyvan 345 min lirə (17000 AZN) qiymətlə "Paşa" adlı 1 ton 200 kiloqramlıq Simmental öküzü olub.

Xatırladaq ki, Türkiyədə Qurban bayramı ilə bağlı yüzilliklərə dayanan, Osmanlı imperiyasından bu yana tarixi ənənələr var. Ölkədə bu bayramla bağlı xeyriyyə qurumları, hətta qurbanlıq sertifikatı anlayışı da var. Belə ki, insanlar inandıqları xeyriyyə qurumlarına pul köçürür, qurumlar da onların adına qurban kəsir, kasıblara, ehtiyacı olanlara paylayır. Hətta elə xeyriyyə qurumları var ki, onlar XIX əsrdən fəaliyyət göstərir, insanların inamını və güvənini qazanıblar.

Məhz buna görə də Türkiyədə insanlar bu bayramın xeyriyyə işi, savab olduğuna inanır, bununla bağlı müxtəlif xeyriyyə marafonları və aksiyalar keçirilir.

Qurban bayramı həmçinin Türkiyədə dini dəyərlərlə yanaşı, sosial həmrəylik, yardımsevərlik və ailə bağlarının gücləndirildiyi xüsusi bir zaman hesab olunur. Hökumət, yerli idarəetmələr və ictimai qurumlar bayramın problemsiz, mənalı və təhlükəsiz keçməsi üçün bütün lazımi tədbirləri görürlər. Bu baxımdan, Türkiyənin Qurban bayramına hazırlığı həm dini şüurun, həm də sosial məsuliyyətin güclü nümunəsi olaraq diqqət çəkir.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzə müxbiri.**

Respublika .- 2025.- 4 iyun(№ 115).- S.12.